# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 58** **Bakı şəhəri, 21 fevral 2020-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 155 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 681; 2002, № 3, maddə 148; 2004, № 3, maddə 193; 2009, № 1, maddə 32, № 9, maddə 752; 2010, № 3, maddə 255; 2014, № 5, maddə 579; 2018, № 12 (II kitab), maddə 2735; 2019, № 9, maddə 1568; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 dekabr tarixli 494 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.4-cü bəndin üçüncü abzasının birinci cümləsində "əlavə rüsum" sözləri "dövlət rüsumu" sözləri ilə əvəz edilsin.

**2.** 5.6-cı bəndin birinci və ikinci abzaslarında, 6.3-cü bəndin ikinci cümləsində ismin müvafiq hallarında "rüsum" sözü ismin müvafiq hallarında "dövlət rüsumu" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş Naziri***

Xalq qəzeti 2020.- 23 fevral.- S.5.